Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 72-73
(7309-7310) ✲ Bazar ertəsi, 12 oktyabr 2015-ci il ✲ Qəzet ayda 4 dəfə çıxır ✲ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***6 oktyabr 2015-ci il.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ucar rayonuna səfər edib. Dövlət başçısı əvvəlcə Ucar şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub və abidə ətrafında görülmüş abadlıq işləri ilə tanış olub.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev Ucar rayonuna səfəri çərçivəsində "Fermer" yol istirahət mərkəzində yaradılan şəraitlə tanış olub.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Ucar-Aqro" MMC-nin quş kəsimi və broyler fabriklərinin fəaliyyəti ilə tanış olub.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev Ucar Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib. Ölkə rəhbəri xəstəxananın rəmzi açılışını bildirən lenti kəsib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ucar gənclər mərkəzinin açılışında iştirak edib.

✲ ✲ ✲

Ölkə başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyası Ucar Rayon Təşkilatının yeni inzibati binasının açılışında iştirak edib.

✲ ✲ ✲

Dövlətimizin başçısı Ucar Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışında iştirak edib. Rəmzi açılış lentini kəsib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ucar şəhərinin su təchizatının yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak edib.

✲ ✲ ✲

Ölkəmizin başçısı yenidən qurulan Göyçay, Ucar avtomobil yolunun açılışında iştirak edib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göyçay rayonuna səfər edib. Dövlət başçısı əvvəlcə Göyçay şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub.

✲ ✲ ✲

Dövlətimizin başçısı Göyçayda Gənclər Mərkəzinin açılışında iştirak edib. Mərkəzin rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub.

✲ ✲ ✲

Ölkəmizin rəhbəri İlham Əliyev Göyçay Bayraq Meydanı Kompleksi ilə tanış olub.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyası Göyçay rayon Təşkilatının yeni inzibati binasının açılışında iştirak edib, rəmzi açılış lentini kəsib.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev Göyçay Su Elektrik Stansiyasının açılışında iştirak edib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlət başçısı Vladimir Putinə ad günü münasibətilə təbriklərini çatdırıb, ona ali dövləti fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev oktyabrın 8-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarı qəbul edib.

Görüşdə Türkiyə Respublikası Silahlı Qüvvələri ilə Azərbaycan ordusunun əlaqələrindən məmnunluq hissi ifadə olunub. Bu əlaqələrin yeni perspektivlərindən danışılıb.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 18-ci iclasının iştirakçılarını qəbul edib.

## *"İlham Əliyev. İnkişaf-məqsədimizdir" çoxcildliyinin iyirmi ikinci, iyirmi üçüncü cildləri çapdan çıxıb*

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin iyirmi ikinci cildində dövlətimizin başçısının Dünya İqtisadi Forumu çərçivəsində İsveçrəyə səfəri, eyni zamanda, Almaniyaya rəsmi səfəri zamanı dövlət və hökumət başçıları, digər yüksək vəzifəli şəxslərlə görüşləri, danışıqları zamanı çıxışları, Konrad Adenauer fondu tərəfindən təşkil olunmuş "Azərbaycan XXI əsrdə—inkişaf və perspektivlər" mövzusunda geniş



müzakirələrdə nitqi və çoxsaylı suallara verdiyi cavablar, Azərbaycan-Almaniya biznes forumunda nitqi və s. öz əksini tapıb.

Bu nəşrdə, həmçinin Prezident İlham Əliyevin Fransaya dövlət səfəri zamanı bu ölkənin Prezidenti ilə danışıqları, bütün görüşlərdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafdan, əməkdaşlıqdan bəhs edən materiallar, dövlətimizin başçısının kütləvi informasiya vasitələrinə verdiyi bəyanat və müsahibələri öz əksini tapıb.

Azərbaycan Prezidentinin Bakıda beynəlxalq təşkilatların təmsilçilərini, nüfuzlu beynəlxalq şirkətlərin nümayəndə heyətlərini, ayrı-ayrı dövlətlərin yüksək vəzifəli şəxslərini qəbul etməsinə, ölkəmizdə keçirilən müxtəlif tədbirlərdə iştirakına, ictimai-siyasi həyatda fəal sosial təbəqə olan gənclərlə görüşünə, habelə respublikamızda çoxşaxəli sosial-iqtisadi inkişaf strategiyasının inamla davam etdirilməsinə, yeni infrastruktur layihələrin həyata keçirilməsinə, xalqımızın rifahının yaxşılaşdırılmasına aid materiallar, həmçinin imzaladığı fərmanlar və sərəncamlar da bu cilddə yer alıb.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 23-cü cildi Azərbaycan Prezidenti İlham Əliyevin Şamaxı rayonuna səfərinə dair materiallarla başlayır.

Dövlətimizin başçısı Şamaxıda Müalicə-Diaqnostika Mərkəzinin təməlqoyma mərasimində iştirakından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Prezident həmin görüşdə deyib deyib: "Azərbaycanın beynəlxalq önəmi artır və biz regional çərçivədə daha fəal rol oynayırıq. Bizim təşəbbüsümüzlə həyata keçirilən transmilli layihələr həm ölkəmizin iqtisadiyyatını gücləndirir, həm də beynəlxalq imicini, önəmini artırır. Bu halda, bütün məsələlər daha da asanlıqla öz həllini tapacaqdır. Həm xarici siyasətdə, həm daxili siyasətdə, həm iqtisadi inkişafda, regionların sosial-iqtisadi inkişafında, müxtəlif sosial məsələlərin həllində - təhsil, səhiyyə, mədəniyyət, ekologiyada, bütün sahələrdə proqramlar var və bunlar ardıcıllıqla icra olunur. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan çox zəngin ölkəyə çevriləcək, Azərbaycan vətəndaşları daha da yaxşı yaşayacaqlar. Mənim məqsədim budur! Mən istəyirəm ki, hər bir insan yaxşı yaşasın, hər bir insanın maddi imkanları artsın, uşaqlar yaxşı məktəblərdə oxusunlar, müəllimlər yaxşı məktəblərdə dərs desinlər. Həkimlər gözəl xəstəxanalarda işləsinlər və insanlarımız da sağlam olsunlar".

Bu cilddə həmçinin Azərbaycan Prezidentinin respublikamızın bölgələrinə səfərləri, ölkəmizin iqtisadi, siyasi, mədəni həyatına, regionların sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş çıxış və nitqləri, tapşırıq və tövsiyələri əksini tapıb.

Çoxcildliyin bu nəşrində Prezident İlham Əliyevin Tacikistana, Rusiya Federasiyasına, Koreya Respublikasına rəsmi səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqları, ölkələr arasında ikitərəfli əlaqələrin, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə və genişləndirilməsinə rəvac verən nitqləri və çıxışları, həmçinin Bakıya rəsmi səfərə gələn Polşa Prezidenti ilə görüşlərinə, danışıqlarına dair materiallar toplanıb.

Bu cilddə eyni zamanda Prezident İlham Əliyevin Dünya Azərbaycanlıları və türk diaspor təşkilatları rəhbərlərinin Forumunda və Moskvada Mstislav Rostropoviçin 80 illik yubileyi şərəfinə təşkil edilmiş rəsmi qəbulda nitqləri, KİV-lərə müsahibələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirləri də yer alıb.

Nəşrdə dövlətimizin başçısının Bakıda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələrini, eləcə də ölkəmizə səfər etmiş ayrı-ayrı dövlətlərin yüksək vəzifəli şəxslərini qəbul etməsinə, habelə ümumxalq tədbirlərində iştirakına dair materiallar, 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar xalqımıza müraciəti, eləcə də bəyanatları və məktubları da dərc olunub.

**Səhifənin materiallarını Qüdrət SƏMƏDOV hazırlamışdır.**